# "Hər gün o ağrını duyuram"



## Fəxrəddin Manafov: "Söz deməyə artıq kimsəm yoxdur"

Xalq artisti Fəxrəddin Manafov növbəti doğum günün qeyd edir. "Şərq" xəbər verir ki, sevilən aktyor "ASAN Radio"nun qonağı olub. Sənətkar yeni yaşında necə hiss etdiyindən danışıb:

"Mənim üçün ikiqat bayramdır. Çünki avqustun ikisi həm də Azərbaycan Kinosu günüdür. Nə xoş ki növbəti yaşımı ruhən azadlıqda qeyd edirəm. Altmış altı illik ömrümdə Vətənlə bağlı ən çox xoşbəxt olduğum günləri son Qarabağ savaşında yaşadım. Həyatımda bu qədər ağlamamışdım. Efirdə də qəhərimi gizlədə bilmirdim. Ali Baş Komandanımız, hörmət edib sevdiyim, dahi insan cənab İlham Əliyev bizə, mənə ruh azadlığı bəxş etdi. Otuz ildir o yükü çiyinlərimizdə, beynimizdə, yaddaşımızda daşıyırdıq. Artıq inamımız azalırdı. Təbii ki, ümid edirdik. Torpaqlarımızın bir gün işğaldan azad olunacağına inanırdım. Lakin qorxurdum ki, ömrüm çatmaz. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizi qorusun. Alli Baş Komandanın və müzəffər ordumuzun qarşısında baş əyirəm. Doğum günü adi bir gündür. Ən gözəli odur ki, 66 yaşımda bu sevinci yaşayıram".

Aktyor yaxın zamanda dünyasını dəyişən həyat yoldaşı Vahidə Sadıqovadan da söz açıb: "Böyük ağrı ilə deyirəm ki, ən yaxınım vəfat etdi. Səhər gözümü açanda, gecə yuxuda da, axşam yatmazdan öncə də bu ağrını duyuram. Fikirləşiərm ki, ömrün qəribə bir dövrü başladı. Vaxtilə anama-atama demədiyimi Vahidəyə söyləyirdim. Artıq deməyə kimsəm yoxdur".

**Samirə Ərəblinski**